AZƏRBAYCAN DEMOKRATİYA VƏ RİFAH PARTİYASI

**Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasının Azərbaycan Respublikasının prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən 10 noyabr 2020-ci il tarixdə imzalanmış üçtərəfli bəyanatın iki il müddətində Qarabağda yaratdığı hərbi-siyasi reallıqla bağlı**

**MÖVQE (dəyərləndirmə) SƏNƏDİ**

1. ***Bəyanatın imzalanmasından ötən iki illik dövr göstərdi ki:***

1.1. Bu bəyanat nəticəsində Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının 12 və 14-cü maddələrinin, həmçinin Azərbaycan Respublikasının Konstitusiyasının 11-ci maddəsinin tələblərinə zidd olaraq "sülhməramlı" qiyafəsində Azərbaycan ərazisinə gətirilən Rusiya ordusu Qarabağda erməni əhalisinin məskunlaşdırıldığı ərazilər və Laçın dəhlizi də daxil olmaqla təxminən 475 kv.km ərazimizə nəzarət imkanına malik oldu.
1.2. Rusiyanın sülhməramlı adı altında qoşunlarının Qarabağda yerləşdirilməsi Azərbaycanın öz ərazisi üzərində suveren hüquqlarının təmin edilməsini və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını, eləcə də ötən dövr ərzində Qarabağın ermənilər yaşayan ərazisinin Azərbaycana inteqrasiyasını əngəllədi.
1.3. Qarabağa yerləşdirilmiş rus qoşunları ərazidəki qanunsuz erməni hərbi birləşmələrinin tərksilah edilməsi və ya ərazidən çıxarılması əvəzinə onların silahlandırılması, hərbi təlimlərin keçirilməsi, lokal hərbi toqquşmaların stimullaşdırılması, həmçinin Azərbaycan əleyhinə mitinqlərin təşkili, Xankəndində Rusiyanın hökumətlərarası idarəsinin və humanitar mərkəzinin yaradılması, Xocalıda rus hərbi kontingenti üçün şəhərciklərin tikilməsi, ərazidə rus dilinin ikinci

dövlət dili elan edilməsi, rus abidə-memoriallarının inşası, süni rus icmalarının yaradılması, erməni mənşəli rus milyaderinin xüsusi misiya ilə Qarabağa göndərilməsi kimi pozucu fəaliyyətlə məşğuldur.
1.5. Bəyanatın imzalanma tarixindən ötən iki illik dövrdə Qarabağda yerləşdirilmiş rus hərbi kontingentinin fəaliyyətinin əsas məqsədi "sülhyaratma" deyil, bölgədə münaqişə və ziddiyyətlərin stimullaşdırılması şəraitində Qarabağda daha uzun illər qalmağa və bölgənin Rusiyanın uzunmüddətli nəzarətində saxlanılması üçün şəraitin yaradılmasına hesablanmışdır.
Odur ki, ADR Partiyası hesab edir ki, işğalçı rus qoşunları Qarabağda sülhməramlı ola bilməz.

***2.ADR Partiyası təklif edir ki:***
2.1. Azərbaycandan qoşunların çıxarılması üçün Rusiya dövlət orqanları ilə danışıqlar başlansın və rus qoşunlarının ərazini tərk etməsi qrafiki razılaşdırılsın.
2.2. Qarabağdakı erməni hərbi birləşmələrinin ərazini tərk etmələri üçün onlara noyabr ayının 30 - dək vaxt verilsin. .
2.3. Qarabağın Azərbaycana inteqrasiyası proqramı hazırlansın və orda yaşayan yerli əhalinin hüquqları və təhlükəsizliyi həmin sənəddə təsbit olunsun.
2.4. Qarabağa məcburi köçkünlərin qaytarılması planı mərhələlər və konkret zaman çərçivələri üzrə açıqlansın, sərhəd rayonları və Şuşanın məskunlaşması ilkin mərhələdə həyata keçirilsin.
2.5. Dövlət sirafişləri üzrə Qarabağda aparılan bərpa və yenidənqurma işləri açıq və rəqabətli tenderlərlə həyata keçirilsin, layihələrin icrası ilə əlaqədar ictimai hesabatlılıq, maliyyə şəffaflığı və informasiya əlçatanlığı təmin edilsin.
2.6. Xankəndi şəhəri və rusiya ordusunun nəzarətində olan digər ərazilərimiz Azərbaycanın inzibati və fiskal (büdcə) subyekti kimi təsbit olunsun.
2.7. Laçın dəhlizinə Ermənistandan giriş və çıxışda Azərbaycanın sərhəd-buraxılış və gömrük-nəzarət məntəqələri vasitsəilə əraziyə səfər edənlərin pasport yoxlaması, gətirilən yüklərin gömrük prosedurlarına uyğun olaraq nəzarəti təmin edilsin.
2.8. Zəngəzur üzərindən Naxçıvanla əlaqəni təmin edən nəqliyyat- kommunikasıya xətti bərpa edilsin.

***Yekun olaraq ADR Partiyası Azərbaycan və Ermənistan arasında birbaşa danışıqlar yolu ilə iki dövlət arasında sülh müqaviləsinin hazırlanmasını, imzalanmasını, ölkələrin bir-birinin ərazi bütövlüyünü tanınmasını, delimitasiya və demarkasiya komissiyalarının işinin, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpasının sürətləndirilməsini mövcud problemin həllinə yönəlik optimal vasitə kimi dəyərləndirdiyini bildirir.***